**Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində fəaliyyət göstərən BFD 4.21 qeydiyyat nömrəli Birdəfəlik Dissertasiya şurasının fəaliyyəti barədə**

BFD 4.21 Birdəfəlik Dissertasiya şurası Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının 17 noyabr 2023-cü il tarixli 3-50/3-1-1-248/2023 nömrəli əmri ilə yaradılmış və səlahiyyət müddəti 01.11.2025-ci il tarixinədək müəyyən edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının 17 noyabr 2023 - cü il tarixli 3-50/3-1-1-248/2023 nömrəli əmri ilə BFD 4.21 Birdəfəlik Dissertasiya şurasının tərkibi aşağıdakı kimi təsdiq edilmişdir:

**Sədr:** i.e.d., prof. Gülənbər Arif qızı Əzizova,

**Sədr müavini:** i.ü.f.d., dos. Azər Seyfalı oğlu Mehtiyev,

**Katib:** i.ü.f.d., dos. Sahib Məmməd oğlu Məmmədov.

**5309.01 – "Sənayenin təşkili və dövlət siyasəti" ixtisası üzrə şura üzvləri:**

i.e.d., prof. Hənifə Alhüseyn oğlu Cəfərli,
i.ü.f.d., dos. Aytən Təyyar qızı Hüseynli,
i.ü.f.d., dos. Oqtay Qulu oğlu Quliyev,
i.ü.f.d., dos. Allahyar Niyaz oğlu Muradov.

**5311.01 – "Müəssisələrin təşkili və idarə olunması" ixtisası üzrə şura üzvləri:**

i.e.d., prof. Tərbiz Nəsib oğlu Əliyev,
i.e.d., prof. Vilayət İbrahim oğlu İsmayılov,
i.ü.f.d., dos. İlham Samil oğlu Rüstəmov.

Şuranın tərkibi 10 nəfərdən ibarət olmaqla təsdiq edilmişdir.

Lakin, 5309.01 – "Sənayenin təşkili və dövlət siyasəti" ixtisası üzrə şura üzvü i.e.d., dos. Hənifə Alhüseyn oğlu Cəfərli Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Ekspert şurasına üzv təyin olunması ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının 27 fevral 2025-ci il tarixli 3-50/3-1-55/2025 nömrəli əmri ilə BFD 4.21 Birdəfəlik Dissertasiya şurası tərkibinə əlavə və dəyişiklik edilmiş və i.e.d., prof. Hənifə Alhüseyn oğlu Cəfərli Şuranın tərkibindən çıxarılmış və i.e.d., prof. Nailə Rauf qızı Əliyeva müdafiə şura üzvləri siyahısına əlavə edilmişdir.

Dissertasiya şurasında fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün şurada 2 ixtisas üzrə dissertasiya işlərinin müdafiəsi təşkil edilmişdir. Bunlar 5309.01 – "Sənayenin təşkili və dövlət siyasəti" ixtisası və 5311.01 – "Müəssisələrin təşkili və idarə olunması" ixtisaslarıdır. Şuranın bu fəaliyyəti müddətində 5 nəfərin fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim etdiyi dissertasiyanın müdafiəsi təşkil olunmuşdur.

UNEC rektoru i.e.d.. prof. Ədalət Muradovun 21 fevral 2024-cü il tarixli 46/1/2024 nömrəli əmri ilə 2024-2025-ci illərdə BFD 4.21 Birdəfəlik Dissertasiya şurası nəzdində müvafiq ixtisaslar üzrə aşağıdakı mütəxəssislərdən ibarət daimi

elmi seminar yaradılmışdır:

**5311.01 – "Müəssisələrin təşkili və idarə olunması" ixtisası üzrə:**

1. Vilayət İbrahim oğlu İsmayılov (sədr) - 5312.01- "Sahə iqtisadiyyatı", i.e.d., prof., Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası "İqtisadiyyat və idarəetmə" kafedrasının müdiri.
2. Hicran Rafiq qızı Muradova (elmi katib) - 5312.01- "Sahə iqtisadiyyatı", i.ü.f.d., dos., Azərbaycan Dövlət İqtisad Universitetinin "Biznes və Logistika" kafedrasının dosenti.
3. Fərhad Pənah oğlu Rəhmanov - 5308.01- "Ümumi iqtisadiyyat", i.e.d., prof., Azərbaycan Dövlət İqtisad Universitetinin "Tətbiqi iqtisadiyyat" kafedrasının professoru.
4. Aynur Nəbi qızı Babayeva - 5311.01 – "Müəssisələrin təşkili və idarə olunması", i.ü.f.d., Bakı Dövlət Universitetinin "İqtisadiyyat" kafedrasının baş müəllimi.
5. Samirə Oqtay qızı Şamxalova - 5312.01- "Sahə iqtisadiyyatı", i.ü.f.d., dos., Azərbaycan Dövlət İqtisad Universitetinin "İqtisadi və texnoloji elmlər" kafedrasının dosenti.
6. Lalə Adil qızı Həmidova - 0800.05 – "Xalq təsərrüfatının iqtisadiyyatı və idarə edilməsi", i.ü.f.d., dos. Azərbaycan Dövlət İqtisad Universitetinin "Tətbiqi iqtisadiyyat" kafedrasının dosenti.
7. Pikəxanım Tahir qızı Xudiyeva - 0800.05 – "Xalq təsərrüfatının iqtisadiyyatı və idarə edilməsi" i.ü.f.d., dos., Azərbaycan Dövlət İqtisad Universitetinin "Biznes və logistika" kafedrasının dosenti.

**5309.01 – "Sənayenin təşkili və dövlət siyasəti" ixtisası üzrə:**

Hənifə Alhüseyn oğlu Cəfərli (sədr) – i.e.d., UNEC-in "Maliyyə və audit" kafedrasının dosenti.

Afaq Fərhad qızı Aslanova (elmi katib) – i.ü.f.d, UNEC-in "Biznes və loqistika" kafedrasının baş müəllimi.

Gülşən Zahid qızı Yüzbaşıyeva – i.e.d., Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin İqtisadiyyat İnstitutunun "İqtisadi siyasətin nəzəri əsasları" şöbəsinin müdiri.

Müslüm Mürsəl oğlu Mürsəlov – i.ü.f.d., UNEC-in "İqtisadiyyat" kafedrasının dosenti.

İbrahim Qədim oğlu Quliyev – i.ü.f.d., UNEC-in "İctimai idarəetmə və sosial innovasiyalar" kafedrasının dosenti.

Kəmalə Akif qızı Nəcəfova – i.ü.f.d., "İqtisadi və texnoloji elmlər" kafedrasının dosenti.

Elnarə Robert qızı Səmədova – i.ü.f.d., "Tətbiqi iqtisadiyyat" kafedrasının dosenti.

5309.01 – "Sənayenin təşkili və dövlət siyasəti" ixtisası üzrə elmi seminarın sədri i.e.d., dos. Hənifə Alhüseyn oğlu Cəfərlinin Attestasiya Komissiyasının Ekspert şurasına üzv təyin olunması ilə əlaqədar Azərbaycan Dövlət İqtisad

Universitetinin rektoru i.e.d., prof. Ədalət Muradovun 16 may 2025-ci il tarixli 162/1/2025 nömrəli əmri ilə onun yerinə "Tətbiqi iqtisadiyyat" kafedrasının professoru, iqtisad elmləri doktoru Nailə Rauf qızı Əliyeva elmi seminarın sədri təyin edilmişdir.

5311.01 – "Müəssisələrin təşkili və idarə olunması" ixtisası üzrə elmi seminarın üzvü UNEC-in "İqtisadi və texnoloji elmlər" kafedrasının 0,5 ştat müəllimi, i.ü.f.d. Elmir Novruz oğlu Səfərlinin müraciəti nəzərə alınaraq Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru i.e.d., prof. Ədalət Muradovun 13 iyun 2025-ci il tarixli 180/1/2025 nömrəli əmri ilə onun yerinə Bakı Dövlət Universitetinin "İqtisadiyyat" kafedrasının baş müəllimi, i.ü.f.d. Aynur Nəbi qızı Babayeva elmi seminarın üzvü təyin edilmişdir.

Dissertasiya şurasında həm Azərbaycan Dövlət İqtisad Universitetinin doktorant və dissertantlarının, həm də digər ali təhsil müəssisələrinin doktorant və dissertantlarının dissertasiya işlərinin müdafiəsi təşkil olunmuşdur.

Disseratsiya şurasında iddiaçılara dissertasiyalarının müdafiəsi üçün əlverişli şərait yaradılır. Dissertasiya şurası aşkarlıq şəraitində fəaliyyət göstərir. Dissertasiya işlərinə tam, hərtərəfli, obyektiv baxılma və bu işlər barəsində əsaslandırılmış qərarlar çıxarılması təmin olunur. Dissertasiya şurasında dissertasiya işlərinin müdafiəsi elmi seminarların protokol tarixlərinə uyğun növbəlilik əsasında keçirilir.